# Qəhrəmanlıq missiyası

***Milli Qəhrəman Çingiz Babayevin şücaəti bütün Azərbaycana məlumdur. O, dünyadan vaxtsız getsə də, həyatı bahasına yüzlərlə insanı ölümdən xilas edib. Atası Adil müəllim məhz buna görə həmişə oğlu ilə fəxr edir. Onun üçün Çingiz yalnız belə bir həyat, belə bir tale yaşaya bilərdi. Başqa cür ola bilməzdi. Yaşı 90-ı keçmiş ağsaqqal əmindir ki, ulu yaradan hər şeyi əvvəlcədən hesablayır, hər kəsə bir tale, bir qismət yazır və bundan qaçmaq heç kəsə müyəssər olmur. Çingiz Babayev də bu qismətdən, bu yazıdan qaça bilmədi və ömrünün 31-ci ilində dünyasını dəyişdi.***

Bu il Azərbaycan Ordusunun baş leytenantı olmuş Çingiz Babayevin qəhrəmancasına həlak olmasından 21 il keçir. İndi Adil müəllim düşünür ki, Çingiz ailənin yeganə oğlan övladı kimi heç ordu sıralarına getməyə bilərdi. Amma belə olmadı. Orduya çağırışdan azad olmaqda müəyyən güzəştə malik olsa da, Çingiz bu hüququndan istifadə etmədi, Milli Ordumuzun sıralarına könüllü yazıldı. Adil müəllim deyir ki, Çingiz uşaqlıqdan hərbi sahəyə maraq göstərib, həmişə qəhrəmanlığa can atıb. Dayısı hərbçi olub, hərdən onlara qonaq gələndə Çingiz onun hərbi papağını götürüb öz başına qoyar, bununla qürur duyarmış. Ancaq uşaqlıq illərində atası onun musiqiçi kimi yetişməsini istəyirmiş. Buna isə Çingizin marağı olmayıb. Ona görə də bu gün Adil müəllim hesab edir ki, qəhrəmanlıq Çingizin alın yazısı, vətəndaşlıq missiyası olub. Və bu missiya 1995-ci il oktyabrın 28-də özünün kulminasiya nöqtəsinə çatmalı və tamamlanmalı imiş.

Həmin gün Bakı metropoliteninin “Ulduz” və “Nəriman Nərimanov” stansiyaları arasında növbəti terror aktı törədilmişdi. Yadımızdan çıxmayıb ki, erməni terror təşkilatları, eləcə də birbaşa Ermənistan hakimiyyətinin ən yüksək kürsülərində oturan millətçilər tərəfindən dəstəklənən və istiqamətləndirilən terrorçular ölkəmizdə çoxlu terror aktları həyata keçirib, nəticədə, yüzlərlə günahsız vətəndaşımız bu qəddar aktların qurbanı olub. Erməni terrorçuları Azərbaycanda bu cür hadisələri, əsasən, sərnişin sıxlığının çox olduğu yerlərdə – avtobuslarda, metro vaqonlarında həyata keçiriblər. Belə ağır və faciəli terror aktlarından biri də 1995-ci il oktyabrın 28-də Bakı Metropolitenində törədilmiş və çoxsaylı insan tələfatı ilə nəticələnmiş hadisədir. Xatırladaq ki, rəsmi məlumatlara görə, həmin faciə nəticəsində 286 nəfər həlak olmuş, 269 nəfər yaralanmışdı. Faciədən 400 nəfərdən çox insan xilas edilmişdi. Faciənin miqyası o qədər böyük olmuşdu ki, respublikanın ozamankı Prezidenti Heydər Əliyev xüsusi sərəncamlar imzalayraq ölkədə 2 günlük milli matəm elan etmiş, hadisə ilə əlaqədar televiziya və radio ilə xalqa müraciət etmiş və günahsız insanları xilas edərkən həlak olmuş 4 nəfəri Azərbaycanın yüksək fəxri adları və medalları ilə təltif etmişdi.

Maraqlıdır ki, onların 4-ü də Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin hərbi qulluqçuları olmuşdu. Çingiz Adil oğlu Babayev məktəbin baş leytenant rütbəli zabiti, digər üç nəfər isə müdavimlər idi. Ulu öndər onların qəhrəmanlığını yüksək qiymətləndirmiş, xüsusən, Çingiz Babayevin şücaətini Azərbaycanın Milli Qəhrəmanı adına layiq görmüşdü. Azərbaycan Prezidentinin bununla bağlı 3 noyabr tarixli fərmanında deyilir: “Bakı metrosunda baş vermiş faciə zamanı öz həyat və sağlamlığı üçün mövcud olan təhlükəyə məhəl qoymadan zərərçəkmişlərin xilas olunmasında xüsusi şücaət və qəhrəmanlıq göstərərək həlak olmuş Azərbaycan Respublikası C.Naxçıvanski adına hərbi məktəbin zabiti baş leytenant Babayev Çingiz Adil oğluna (ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adı verilsin”.

Digər üç nəfər – həmin məktəbin müdavimləri İsayev Ruslan Məhəmməd oğlu, Məmmədov Samir Nadir oğlu və Səfərov Nicat Mürvət oğlu isə ölümündən sonra “İgidliyə görə” medalına layiq görülmüşdülər.

Həmin gün axşamüstü saat 16-17 arası. Metro qatarı “Ulduz” stansiyasından “Nəriman Nərimanov” istiqamətində hərəkətdə ikən qəfildən vaqonlardan birində partlayış səsi eşidilir, sonra ikinci partlayış baş verir, yanğın başlayır, vaqonu tüstü, alov və zəhərli qazlar bürüyür. İnsanlar haray qoparıb xilas olmağa çalışırlar.

Elə bu zaman qonşu vaqonda olan Çingiz Babayev və C.Naxçıvanski adına hərbi məktəbin tələbələri yanan vaqonun qapı və pəncərələrinin şüşələrini sındıraraq insanların köməyinə tələsirlər. Bu günlərdə redaksiyamızda olan Adil müəllimin özü ilə gətirdiyi və oğlu Çingizin həmin gün göstərdiyi şücaətə həsr olunmuş “Əfsanəvi qəhrəman” kitabında bu barədə qeyd edilir: “Bəziləri durub kənardan tamaşa edir, gücü eləcə göz yaşlarına çatır, bəziləri o dəhşəti görməmək üçün uzaqlaşır, bəziləri isə “asta qaçan namərddi” deyib sadəcə qaçırdılar… Bu vaxt digər vaqondan əynində qara hərbi forma olan ucaboylu, qəddqamətli, yaraşıqlı gənc zabit çıxır, yanında da üç müdavimi. Bu zabit Çingizdir. O… dərhal şaxtaya enir, yanan vaqondan insanları qurtarmağa tələsir… Burda gördükləri mənzərədən dəhşətə gəlirlər. Adamlar bir-birini tapdalayıb çıxmaq istəyirdilər. Çoxusu huşsuz halda yerdə inildəyirdi. Qışqıran kim, qorxudan, həyəcandan ürəyi gedən kim”.

Çingiz dostları ilə birgə əlacsız insanları bir-bir qucaqlarına qaldırıb xilas edərkən qəfildən bir qadının səsini eşidir:

– Qardaş, qadan alım, balamı xilas elə. Mən ölsəm də olar.

Çingiz əvvəl 5-6 aylıq körpəni, sonra isə anasını xilas edir. Bu minvalla Çingiz təxminən 300 insanı xilas edib həyata qaytarır. Ancaq yanmaqda olan vaqondan çıxan zəhərli



tüstü də öz işini görürdü. Çingiz cəld hərəkət etməklə daha çox adamı xilas etmək istəyirdi. Xilas etdiyi adamları bir-birinin ardınca perrona qoyub qayıdır, boğulmaqda olan insanların hamısını bəladan qurtarmağa can atırdı. O, həmin anlarda özünü tamamilə unutmuşdu, hətta amansız zəhərin qanına işlədiyinin belə fərqində deyildi. Bircə şey haqqında düşünürdü: mümkün qədər çox insanı xilas etmək! İnsanların gözləri yolda idi, hamı ondan kömək umurdu: qoca da, qadın da, uşaq da. Çingizin vicdanı yol vermirdi ki, onları odun-alovun içində qoyub hadisə yerindən uzaqlaşsın. Beləliklə, gücü çatdığı qədər insanlara kömək edir və növbəti dəfə köməyə tələsərkən özü də huşunu itirərək yıxılır. Həkimlər onun həyatını xilas edə bilmirlər. Çingiz Babayev qəhrəmancasına həlak olur. Onunla bərabər üç müdavim – Ruslan İsayev, Samir Məmmədov və Nicat Səfərov da həlak olurlar…

Bu, əsl fədakarlıq, əsl vətənpərvərlik, əsl millətsevərlik idi. Bu, Çingizin evdə-ailədə, məktəbdə aldığı tərbiyədən, özünün həyatda qazandığı mənəvi keyfiyyətlərdən irəli gəlirdi. Bir də, atası Adil müəllimin dediyinə görə, Çingiz İrəvan xanı Rəşid xan Makinski nəslinin davamçılarından biri idi. Adil müəllimin anası Rəşid xanın qızı olub. Onun Birinci Dünya müharibəsində həlak olmuş dayısı Çingiz Makinski də zabit olub. Balaca Çingizə dayısının adı verilib. Çingizin dayısı Əsəd Cəfərov da zabit olub, polkovnik-leytenant rütbəsi daşıyıb. Təbii ki, bütün bunlar uşaq yaşlarından bəri Çingizin mənəvi dünyasının formalaşmasında mühüm rol oynayıb.

1964-cü il oktyabrın 2-də Bakıda ziyalı ailəsində dünyaya göz açmış Çingiz Babayev Yasamal rayonundakı 20 nömrəli orta məktəbi bitirdikdən sonra evdə hərbi məktəbə getmək istədiyini bildirib. Lakin atası məsləhət bilib ki, Azərbaycan Texniki Universitetinə daxil olsun, burada həm müəyyən bir peşəyə yiyələnər, həm də hərbi rütbə alar, sonra xalqa hansı sahədə istəsə, orda xidmət edər. Belə də olur. Çingiz 1986-cı ildə həmin universiteti bitirdikdən və diplomla bərabər leytenant rütbəsi də aldıqdan sonra istehsalat sahəsində uzun müddət davam gətirə bilmir və hərbi sahəyə keçir. Bir müddət ön cəbhədə torpaqlarımızı işğal etməyə çalışan Ermənistan Silahlı Qüvvələrinə qarşı mərdliklə vuruşur. 1994-cü ildə Müdafiə Nazirliyinin sərəncamı ilə Cəmşid Naxçıvanski adına hərbi liseyə göndərilir. Əvvəlcə taqım komandiri, sonra bölük komandirinin siyasi işlər üzrə müavini vəzifəsinə təyin olunur. 1995-ci il oktyabrın 28-də isə Bakı Metropolitenində faciə zamanı böyük vətənpərvərlik və qəhrəmanlıq nümunəsi göstərərək həlak olur.

Adil müəllim xatırlayır ki, yeganə oğlu olan Çingizin vaxtsız vəfatından sonra çox sarsılıb. Hətta bundan sonra necə yaşayacağını təsəvvürünə gətirə bilməyib. Ancaq ulu öndər Heydər Əliyev Çingizin təltif olunduğu Milli Qəhrəmanın Qızıl ulduzunu ona təqdim edərkən bunu sezərək deyib: “Sən məğrur dayan, başını dik tut. Fəxr elə ki, belə oğul böyütmüsən. Övladın sənə baş ucalığı gətirib”. Bu sözlər Adil müəllimə böyük təsəlli olub.

Bu il oktyabrın 28-də həmin metro faciəsinin 21 ili tamam olur. Bu gün metronun “Ulduz” stansiyasının qarşısında, eləcə də xidmət etdiyi C.Naxçıvanski adına hərbi liseydə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Babayevin büstü ucalır. Təhsil aldığı orta məktəbə və yaşadığı binanın önünə onun xatirə lövhəsi vurulub. Hər gün minlərlə insan bu yerlərdən keçərkən Çingizlə qarşılaşır, onun unudulmaz və nəsillərə örnək olan qəhrəmanlığını xatırlayır. Heç şübhəsiz ki, ondan vətənpərvərlik dərsi alanlar da çox olur. Elə Azərbaycan da özünün bu cür qəhrəman oğulları ilə fəxr edir. Qəhrəmanlar isə heç zaman ölmür…

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***